

**Bir neçə il bundan əvvəl mənim göstərişimlə Bakıda geniş yenidənqurma və abadlıq işlərinə start verildi. Vəzifə ondan ibarət idi ki, biz Bakını parklar və bağlar şəhərinə çevirək və buna nail oluruq. Bu gün həm Bakı sakinləri bunu görür, həm də xarici qonaqlar bunu qeyd edirlər. Bakının ekologiyasını böyük dərəcədə çirkləndirən yerlər və müəssisələr artıq ləğv olunur. Onların yerində müasir, şəhərsalma qaydalarına uyğun yeni ictimai zonalar yaradılır.**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Ölkənin ekoloji durumu dövlətin diqqət mərkəzindədir

**Azərbaycan dövlətinin ardıcıl olaraq, prinsipiallıqla həyata keçirdiyi siyasi kursun mühüm tərkib hissələrindən biri də ölkədə ekoloji tarazlığın bərpası, ətraf mühitin qorunması, yaşıllıqların artırılması və çirklənmiş ərazilərin təmizlənməsidir. Bu, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin daim diqqət yetirdiyi məsələ olub.**

Ən maraqlısı isə odur ki, çoxsaylı fərman və sərəncamlarla, qanunlarla, tədbirlər planı ilə diqqətdə saxlanılan bu problem təkcə hansısa bir dövlət qurumunun üzərinə qoyulmur, ümumilikdə, cəmiyyətin bütün strukturlarının gündəlik fəaliyyətinə daxil edilir. Eləcə də, ümummilli liderin adını daşıyan Heydər Əliyev Fondunun rəhbərliyi bu istiqamətdə möhtəşəm layihələrin reallaşdırılmasına nail olur.

Prezident İlham Əliyev ötən ilin noyabr ayında Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu, bu il isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevi qəbul edərkən də bu məsələyə xüsusi yer ayırmışdı. Dövlət başçımız Eldar Əzizovu qəbul edərkən vurğulamışdı ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən biridir.

Həqiqətən, həm paytaxt sakinlərinin, həm də şəhərimizin qonaqlarının yekdil fikri belədir ki, Bakının ekoloji vəziyyəti ildən-ilə yaxşılaşır, çoxsaylı önəmli layihələr icra edilir. Hamı görür ki, əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələr aradan götürülür. Bu barədə danışarkən, ilk növbədə, keçmiş Balaxanı zibilxanası qeyd edilməlidir. Həmin obyekt əvvəllər elə bir tüstü buraxırdı ki, insan sağlamlığına zərər vururdu. İndi o zibilxananın yerində müasir poliqon qurulub və zibilin çeşidlənməsi, bərk məişət tullantılarının yandırılması istiqamətində mühüm addımlar atılıb, böyük investisiyalar qoyulub, zibilyandırma zavodu inşa edilib. Dövlət böyük vəsait hesabına həmin ekoloji fəlakət mənbəyini aradan götürdü.

Paytaxtın ekoloji vəziyyətinə fəlakət kimi təsir göstərən ünvanlardan biri də Bibiheybət neft mədənləri idi. Oradakı vəziyyət, ümumiyyətlə, çox acınacaqlı idi, neftlə çirklənmiş yerlər, gölməçələr hələ Maksim Qorki tərəfindən “cəhənnəm görüntüləri” adlandırılmışdı. Uğurlu dövlət siyasəti bu fəlakət zonasının fəsadlarını da aradan götürdü. İndi orada gözəl park salınıb və vətəndaşların sərəncamına verilib. Eyni zamanda, idman şəhərciyi yaradılıb, müasir idman hovuzu, digər ictimai obyektlər tikilib. Ən başlıcası isə həmin ərazidə təxminən 700-ə yaxın mətbuat təmsilçisi ailəsinin yaşayacağı “Jurnalistlər şəhərciyi” salınıb. Mən fəxr edirəm ki, həmin şəhərcikdə atam – əlli ildən artıq rəsmi dövlət mətbuatında çalışmış veteran jurnalist İsaq Əmənullayevə də üçotaqlı mənzil verilmişdir.

Paytaxtın ekoloji tarazlığı pozulmuş ünvanlarından biri olan Böyükşor gölü də çoxsaylı səylər nəticəsində tamamilə təmizlənmişdir. Məlum olduğu kimi, onilliklər ərzində Böyükşor gölünə axıdılan kanalizasiya, lay suları, neftlə çirklənmiş sular o bölgəni də ekoloji fəlakət zonasına çevirmişdi. Prezident İlham Əliyevin tapşırığı ilə həmin ərazi də tamamilə təmizlənib. İndi Böyükşor gölünün bir hissəsi tam ekoloji standartlara cavab verir və dövlət başçımızın da dediyi kimi, köçəri quşlar oraya qonur. Göl üzərində yeni yol çəkilib və gölün ikinci hissəsinin təmizlənməsi istiqamətində işlər gedir. Olimpiya Stadionu vaxtilə bataqlıq kimi tanınan yerdə tikilibdir.

Dövlət başçımız xatırladır ki, paytaxtda yeni ağacların əkilməsi şəhərin ekoloji vəziyyətini xeyli yaxşılaşdırır. Çünki son illərdə Bakıda milyonlarla ağac əkilmişdir. Nəticədə, bu gün Bakı yaşıl parklar, bağlar şəhəridir. Prezident bu faktla fəxr edir: “Parkların sayına görə, hesab edirəm ki, Bakı dünya miqyasında ən qabaqcıl yerlərdədir. Bizim ən böyük parkımız olan bulvarın məsafəsi 3 kilometrdən 15 kilometrə uzadıldı. Mərkəzi Park indi şəhərə yeni yaraşıq verir. Sovetski adlandırılan ərazidə 20 hektarda çox gözəl, abad park salınıbdır. Heydər Əliyev Mərkəzinin önündə, Konqres Mərkəzinin önündə – vaxtilə Səttarxan zavodunun ərazisi olan bu yer də ekoloji təhlükə mənbəyi idi, – 20 hektar ərazidə park salınıb və vətəndaşlar böyük həvəslə bu imkanlardan istifadə edirlər. Vaxtilə havanı çirkləndirən lampa zavodu, şifer zavodu və digər müəssisələr köçürüldü, onların yerində nəqliyyat infrastrukturu yaradılmışdır. Bir sözlə, bu gün Bakı həm ekoloji, həm də rahatlıq baxımından çox sürətlə inkişaf edən şəhərdir”.

Yadımdadır, ötən ilin dekabrında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu Şamaxı rayonunda keçirilən ağacəkmə aksiyasında iştirak etmişdir. Bu, təkcə böyük şairin xatirəsinə ehtiram deyildi, əsas məqsədlərdən biri də məhz ölkə ərazisindəki yaşıllıqların artırılması idi.

Xatırladaq ki, dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızın bütün ərazisini əhatə edən ağacəkmə aksiyası çərçivəsində, ümumilikdə, 83 şəhər və rayonda 38 növdə 650 min ağac əkilib. Aksiya ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların əkiləcəyi ərazilərin elektron xəritəsini əvvəlcədən hazırlamışdı. Ağacəkmə aksiyasında IDEA İctimai Birliyinin və Heydər Əliyev Fondunun, Regional İnkişaf İctimai Birliyinin üzvləri və könüllüləri də fəal iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 11-də Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda yeni salınan “Gənclik” parkında “Təbiət naminə birləş, Həyat naminə birləş!” layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak etmişdilər. Bir gündə 30 minə yaxın ağacın əkildiyi parkın salınması ölkəmizdə həmin istiqamətdə indiyədək icra olunan çoxsaylı layihələrin tərkib hissəsi idi. Bu layihələr sırasında əhalinin sağlam ekoloji mühitdə yaşaması məsələsinə xüsusi diqqət yetirilir. Ölkəmizdə həyata keçirilən ekoloji siyasət nəticəsində yeni yaşıllıqların salınması, qorunması ilə yanaşı, eyni zamanda, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağacəkmə aksiyalarının keçirilməsi Azərbaycanda ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələr verir, yaşıllıq zonalarının sahəsini artırır.

Xatırladaq ki, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən siyasətdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var. Bu baxımdan Heydər Əliyev Fondunun “Təbiət naminə birləş, Həyat naminə birləş!” layihəsi xüsusi əhəmiyyət daşıyır.

Bu qeydləri Prezident İlham Əliyevin Anar Quliyevi qəbul edərkən şövqlə bir faktla yekunlaşdırmaq istəyirik: “Biz Qara şəhəri Ağ şəhərə çevirdik. Hesab edirəm ki, bu da dünya miqyasında ən böyük və ən müasir standartlara cavab verən şəhərsalma layihələrindən biridir. Artıq orada çoxmənzilli evlər tikilir, ictimai zonalar yaradılır. Qara şəhəri ləğv edib onun yerində ekoloji təmiz Ağ şəhər yaratmaq bizim növbəti tarixi xidmətimizdir”.

***Günel ƏMƏNULLAYEVA,***
***kimya elmləri üzrə fəlsəfə doktoru***